# *Gürcüstanın XİN başçısı:* "Azərbaycan bizim üçün vacib tərəfdaşdır"

**"Azərbaycan bizim üçün vacib tərəfdaş, qonşu ölkədir, bizim aramızda dostluq əlaqələri var".**

"Report"un yerli bürosu xəbər verir ki, bunu Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili deyib.

"Bu dostluq əlaqələri, xalqlarımız arasındakı münasibətlərə, dostluğa əsaslanır. İki ölkənin ortaq maraqları, əlbəttə, bölgənin rifahına və bölgənin



rolunun daha yaxşı təqdim olunmasına yönəlməlidir ki, hər iki ölkə öz maraqlarını beynəlxalq arenada düzgün şəkildə təqdim edə bilsin", - M.Boçorişvili bildirib.

O qeyd edib ki, Azərbaycanda yüksək səviyyədə, vacib görüşlər keçirilib.

"Bizim üçün önəmli idi ki, seçkilərdən sonra, yeni hökumət şəraitində, Gürcüstanın Baş naziri ilk səfərini qonşu ölkələrə etsin. Tura Azərbaycandan başladıq", - Gürcüstanın XİN rəhbəri vurğulayıb.

Azərbaycan.- 2025.- 19 yanvar ( № 12).- S.2.